# *Bahar MURADOVA:* "Türk dünyasında ailə və sosial siyasət sahəsində birgə məqsədlər və dəyərlər bizi birləşdirir"

"Nazirlərin görüşü çərçivəsində mühüm sənədin imzalanması ilə üzv ölkələrin sosial və ailə sahəsində ortaq niyyət və fəaliyyət istiqamətləri təsbit olunub. Bu sənədin hazırlanması prosesində hər bir ölkənin irəli sürdüyü təkliflər nəzərdən keçirilib və yekunda ortaq məzmun və forma üzərində razılıq əldə olunub. Əldə olunan razılaşmalar gələcəkdə həyata keçiriləcək konkret fəaliyyət planlarının əsasını təşkil edəcək. Bu planlar həm resurs təminatı, həm də müddət baxımından əlavə razılaşmalarla dəstəklənəcək".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova jurnalistlərə açıqlamasında bildirib. O, milli dəyərlər, ailə modeli və sosial siyasətin perspektivləri ilə bağlı mühüm fikirlər səsləndirib. Komitə sədri qeyd edib ki, əsas məqsəd üzv ölkələrin niyyət və məqsədlərini birləşdirmək və bu yolda birgə addımlamaqdır. Bunun üçün Türk dünyasının zəngin resursları, tarixi irsi, bugünkü nailiyyətləri və gələcəyə yönəlmiş strateji baxışı əsas götürülür. "Zərərli və yad ideoloji təsirlərə qarşı birgə və razılaşdırılmış mövqe ortaya qoymaq, milli kimliyimizə və ənənəvi ailə modelinə sadiqliyimizi göstərmək baxımından bu toplantının böyük əhəmiyyəti var", - deyə B.Muradova əlavə edib.

O, ailənin cəmiyyətdə oynadığı rolu xüsusi olaraq vurğulayaraq bildirib ki, xüsusilə gənc ailələrin formalaşması, valideynlik məsuliyyətinin dərk olunması və övladların vicdanlı, məsuliyyətli və fəal vətəndaş kimi yetişdirilməsi üçün ailə əsas sosial mühitdir. "Dövlət bu mühiti həm ictimai-siyasi, həm iqtisadi-sosial, həm də təhlükəsizlik baxımından təminat altına almalıdır", - deyən komitə sədri qeyd edib ki, türk dövlətlərinin əksəriyyətində oxşar hüquqi baza və sosial müdafiə mexanizmləri mövcuddur. Eyni zamanda uğurlu milli təcrübələrin paylaşılması və ortaq layihələrin həyata keçirilməsi ilə bağlı təkliflər də sənəddə əksini tapıb. Hazırda bu, fikir səviyyəsində olsa da, bir çox ölkədə artıq real işlərə çevrilmiş və nəticə verən təcrübələr mövcuddur.

Komitə sədri vurğulayıb ki, bizi birləşdirən təkcə məqsəd və hədəflər deyil, eyni zamanda, ortaq mədəniyyətimiz, mənəvi dəyərlərimiz və tariximizdir. Bu mədəni irsə sahib olmaq, onu qoruyub gələcək nəsillərə ötürmək həm milli, həm də regional məsuliyyətdir.

"Ailə və mənəvi dəyərlərin mövcud vəziyyətini və dəyişiklikləri təhlil etmək üçün ciddi, etibarlı və sistemli məlumat bazasına ehtiyac var. Bu sahədə qərarların düzgün verilməsi üçün elmi əsaslara söykənən statistika və sosial tədqiqatlar həlledici əhəmiyyət daşıyır", - deyən B.Muradova fikrini yekunlaşdırıb.

Azərbaycan.- 2025.- 13 iyun (№120).- S.5.